1_Layout 1 30.05.2020 10:51 Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*
**İlham ƏLİYEV**

# ƏSGƏR

№ 10 (576)

31 may
2020-ci il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti

## Prezident İlham Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə ucaldılmış abidəni ziyarət edib

**Mayın 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə Bakının İstiqlaliyyət küçəsində ucaldılmış abidəni Respublika Günü münasibətilə ziyarət edib.**

**AZƏRTAC** xəbər verir ki, dövlətimizin başçısı abidənin önünə gül dəstəsi qoydu.

Yüz iki il bundan əvvəl - 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması ölkəmizin həyatına böyük tarixi hadisə kimi daxil oldu. Müstəqil, azad, demokratik respublika qurmaq məqsədini qarşıya qoyan Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 aylıq fəaliyyəti dövründə xalqın milli mənlik şüurunu özünə qaytardı, onun öz müqəddəratını təyin etməyə qadir olduğunu nümayiş etdirdi. 1918-ci il mayın 28-də qəbul edilən İstiqlal Bəyannaməsindən - Əqdnamədən də göründüyü kimi, bu möhtəşəm tarix xalqımızın müstəqillik hisslərini daha da gücləndirdi.

Yeni qurulan Azərbaycan Xalq Cümhuriyyəti öz üzərinə götürdüyü çətin tarixi vəzifəni şərəflə yerinə yetirdi. Azərbaycanın ilk Parlamenti və Hökuməti, dövlət aparatı təşkil edildi, ölkənin sərhədləri müəyyənləşdirildi, bayrağı, himni və gerbi yaradıldı, ana dili dövlət dili elan edildi, ordu quruculuğu sahəsində ciddi tədbirlər həyata keçirildi, maarifin və mədəniyyətin inkişafına xüsusi diqqət yetirildi. Azərbaycanın ilk universiteti təsis olundu, təhsil milliləşdirildi, xalqın sonrakı illərdə mədəni yüksəlişi üçün zəmin hazırlayan, ictimai fikir tarixi baxımından müstəsna əhəmiyyətli işlər görüldü.



Mövcudluğunun ilk günlərindən xalq hakimiyyəti və insanların bərabərliyi prinsiplərinə əsaslanan Azərbaycan Xalq Cümhuriyyəti bütün ölkə vətəndaşlarına eyni hüquqlar verərək irqi, milli, dini, sinfi bərabərsizliyi ortadan qaldırdı. Dünya birliyi tərəfindən tanınan Xalq Cümhuriyyətinin fəaliyyəti sayəsində ölkəmizin beynəlxalq hüququn subyekti olması 1920-ci ilin aprel ayında bolşevik işğalından sonra Azərbaycanın bir dövlət kimi dünyanın siyasi xəritəsindən silinməsinin qarşısını aldı.

XX əsrin sonlarında yenidən müstəqilliyinə qovuşan Azərbaycan öz suverenliyini qoruyub saxlamağı bacardı. Yenidən hakimiyyətə qayıdan Ümummilli Lider Heydər Əliyev Azərbaycan dövlətçiliyinin qorunması üçün qətiyyətli tədbirlər gördü, ölkədə davamlı ictimai-siyasi sabitliyi bərqərar etdi. Beləliklə, Heydər Əliyevin şah əsəri olan müasir, müstəqil Azərbaycan dövləti quruldu və sürətli inkişaf yoluna qədəm qoydu.

Ulu Öndərimiz dəfələrlə bildirmişdi ki, biz bu gün demokratik Azərbaycan dövlətini qururuqsa, ayağa qaldırırıqsa, Xalq Cümhuriyyətinə borcluyuq. Azərbaycan Xalq Cümhuriyyətinin tariximizdəki yeri və



roluna xüsusi qiymət verən Heydər Əliyev deyirdi: "Biz ilk Demokratik Cümhuriyyətin yaranması gününü əziz tutaraq, onu Azərbaycanın dövlət müstəqilliyi günü – Respublika Günü elan etmişik və bu, bizim milli bayramımızdır".

Ümummilli Liderin bu siyasətini Prezident İlham Əliyev uğurla davam etdirir. Dövlətimizin başçısının sərəncamları ilə 2018-ci il ölkəmizdə "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan olundu və AXC-nin 100 illik yubileyi təntənəli şəkildə qeyd edildi. Xalqımız Cümhuriyyətin yarandığı 28 May – Respublika Gününü bu il də milli bayram kimi qeyd edir.

## 28 MAY RESPUBLİKA GÜNÜDÜR

**1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması Azərbaycan xalqının həyatına böyük və əlamətdar hadisə kimi əbədi daxil olmuşdur. Həmin tarix Respublika günü kimi təntənə ilə qeyd edilir.**

1917-ci ilin fevralında Rusiyada monarxiya rejimi devrildi. Hakimiyyətə gələn Müvəqqəti hökumət Müəssislər Məclisinə seçkilər keçirdi. Lakin Müvəqqəti hökumət uzun müddət hakimiyyətdə qala bilmədi. 1917-ci ilin oktyabrında hakimiyyət çevrilişi baş verdi. Ona görə də Cənubi Qafqazdan Müəssislər Məclisinə seçilən deputatlar Rusiyaya gedə bilmədilər. Onlar 1918-ci il fevralın 14-də Tiflisdə Cənubi Qafqazın ali hakimiyyət orqanı olan Zaqafqaziya Seymini yaratdılar. Seymdə Müsəlman Fraksiyasının Müəssislər Məclisinə seçkilər zamanı Azərbaycanın, habelə bütün Cənubi Qafqazın bir milyondan çox türk-müsəlman seçicisinin səsini qazanmış 44 deputat təmsil edirdi. Müsəlman fraksiyası və ya müsəlman şurası, əslində, Zaqafqaziya müsəlman parlamenti funksiyasını yerinə yetirirdi.

Dövlət dumalarında olduğu kimi, Zaqafqaziya Seyminin də ən ardıcıl üzvləri Azərbaycan nümayəndələri idilər. Məhz onların tələbi ilə 1918-ci il aprelin 9-da Zaqafqaziya Seymi Zaqafqaziyanın müstəqilliyini elan etdi və Birləşmiş Zaqafqaziya Cümhuriyyəti yaradıldı. Lakin kəskin milli mənafe ziddiyyətləri Zaqafqaziya Seyminin və Zaqafqaziya Cümhuriyyətinin konkret addımlar atmasına imkan vermədi. Nəticədə 1918-ci il mayın 25-də gürcü nümayəndələr Seymdən çıxdılar və mayın 26-da Gürcüstanın müstəqilliyini elan etdilər.

1918-ci il mayın 27-də Müsəlman Fraksiyasının üzvləri də ayrıca iclas keçirdilər və Azərbaycanın müstəqilliyini elan etmək qərarına gəldilər. Bu məqsədlə Zaqafqaziya müsəlman şurası özünü Azərbaycan Milli Şurası elan etdi. Həmin iclasda Azərbaycan Milli Şurasının rəyasət heyəti və sədri seçildi. Məmməd Əmin Rəsulzadə Milli Şuranın sədri oldu. Mayın 28-də Həsən bəy Ağayevin sədrliyi ilə Azərbaycan Milli Şurasının tarixi iclası keçirildi. İclasda iştirak edən Həsən bəy Ağayev (sədr), Mustafa Mahmudov (katib), Fətəli xan Xoyski, Xəlil bəy Xasməmmədov, Nəsib bəy Yusifbəyli, Mir Hidayət Seyidov, Nəriman bəy Nərimanbəyov, Heybət Qulu Məmmədbəyov, Mehdi bəy Hacinski, Əli Əskər bəy Mahmudbəyov, Aslan bəy Qardaşov, Sultan Məcid Qənizadə, Əkbər Ağa Şeyxülislamov, Mehdi bəy Hacıbababəyov, Məmməd Yusif Cəfərov, Xudadat bəy Məlik-Aslanov, Rəhim bəy Vəkilov, Həmid bəy Şahtaxtinski, Firudun bəy Köçərlinski, Camo bəy Hacınski, Şəfi bəy Rüstəmbəyov, Xosrov Paşa bəy Sultanov, Cəfər Axundov, Məhəmməd Məhərrəmov, Cavad Məlik-Yeqanov və Hacı Molla Səlim Axundzadə Azərbaycanın İstiqlal Bəyannaməsini qəbul etdilər.



İstiqlal Bəyannaməsi bütün türk-müsəlman dünyasında, ümumiyyətlə bütün Şərqdə ilk dəfə olaraq Azərbaycanda ən demokratik respublika idarə üsulunun - parlamentli respublikanın yaradılacağından xəbər verirdi.



Azərbaycan Milli Şurası həmin iclasında, eyni zamanda, bitərəf Fətəli xan Xoyskinin başçılığı ilə Azərbaycan Xalq Cümhuriyyətinin ilk Müvəqqəti hökumətinin tərkibini də təsdiq etdi. İlk Müvəqqəti hökumət bu tərkibdə idi: Fətəli xan Xoyski - Nazirlər Şurasının sədri və Daxili İşlər naziri, Xosrov Paşa bəy Sultanov - Hərbi nazir, Məmməd Həsən Hacınski - Xarici İşlər naziri, Nəsib bəy Yusifbəyli - Maliyyə naziri və Xalq maarifi naziri, Xəlil bəy Xasməmmədov - Ədliyyə naziri, Məmməd Yusif Cəfərov - Ticarət və Sənaye naziri, Əkbər Ağa Şeyxülislamov - Əkinçilik naziri və Əmək naziri, Xudadat bəy Məlik- Aslanov - Yollar naziri və Poçt-teleqraf naziri, Camo bəy Hacınski - Dövlət nəzarətçisi.

Qeyd etmək lazımdır ki, Birinci Dünya müharibəsində böyük dövlətlərin dünyanı bölüşdürmək uğrunda mübarizəsinin həlledici mərhələyə daxil olduğu və ölkənin başı üzərini yeni işğal təhlükəsinin aldığı çox mürəkkəb bir daxili və beynəlxalq şəraitdə müstəqilliyini elan etmiş və hərbi köməyə böyük ehtiyacı olan Azərbaycan Xalq Cümhuriyyəti ilk addım kimi Türkiyə ilə müqavilə bağlamağı qərara almışdı. Belə ki, 1918-ci il iyunun 4-də Batumda Osmanlı Türkiyəsi ilə Azərbaycan Respublikası arasında dostluq müqaviləsinin imzalanması Azərbaycan xalqı üçün həyati əhəmiyyətli sənəd olmaqla yanaşı, Cümhuriyyət hökumətinin imzaladığı ilk dövlətlərarası müqavilə idi. Bunun ardınca iyunun 16-da Azərbaycan hökuməti Tiflisdən Gəncəyə köçdü.

1918-ci il iyunun 17-də Fətəli xan Xoyskinin başçılıq etdiyi Azərbaycan Xalq Cümhuriyyəti hökuməti çox ağır şəraitdə, eləcə də soyqırımı taleyini yaşamış Azərbaycan xalqını bu çətin vəziyyətdən çıxarmaq məsuliyyətini öz üzərinə götürdü. Belə ki, hökumət iyun ayının 19-da bütün Azərbaycan ərazisində hərbi vəziyyət elan etdikdən sonra, təcili olaraq dövlət quruculuğu prosesinə başladı. Bütün bunlarla yanaşı, Azərbaycan hökuməti öz fəaliyyətinin mühüm bir hissəsini dövlət müstəqilliyinin qorunub saxlanması, eləcə də xarici müdaxilənin qarşısının alınması üçün ordu quruculuğuna yönəltmişdi.

Bu baxımdan ordu quruculuğu istiqamətində iyunun 26-da müsəlman hərbi korpusunun Azərbaycan korpusuna çevrilməsi ilə mühüm addım atıldı və faktiki olaraq ilk milli ordu yaradıldı.

Qafqaz İslam Ordusu və Azərbaycan Korpusu iyun-avqust aylarında Gəncədə, Yevlaxda, Göyçayda, və digər bölgələrdəki ağır döyüşlərdə bolşevik-daşnak qoşunlarını darmadağın edərək sentyabrın 15-də Bakıya daxil oldu. Bakı və digər rayonların azad olunması ilə Azərbaycan Xalq Cümhuriyyəti hakimiyyətini ölkənin bütün hüdudlarında təmin etdi. Azərbaycan Xalq Cümhuriyyətinin hökuməti sentyabrın 17-də Gəncədən Bakıya köçərək, mühüm dövlət təsisatları məhz burada yerləşdirildi, ölkədə dövlət quruculuğunun əsas mərhələsinə başlanıldı.

Azərbaycan Xalq Cümhuriyyətinin Parlamenti və Hökuməti ölkənin başı üstünü alan xarici müdaxilə təhlükəsini sovuşdurmaq məqsədilə gənc respublikanın beynəlxalq aləmdə tanınması üçün də böyük iş aparırdı. Görkəmli dövlət xadimi Ə.Topçubaşov ağır çətinlikləri dəf edərək Azərbaycan Xalq Cümhuriyyətinin bir sıra böyük dövlətlər tərəfindən de-fakto tanınmasına nail olsa da, XI Qızıl Ordunun Şimali Azərbaycanı işğal etməsilə onun bu sahədəki fəaliyyəti yarımçıq qaldı.

Sovet Rusiyasının hərbi müdaxiləsi və XI Qızıl Ordu hissələrinin qanlı hərbi əməliyyatları nəticəsində Şimali Azərbaycan yenidən Rusiyanın tərkibinə qatılsa da, Azərbaycan Xalq Cümhuriyyəti xalqımızın azadlıq hərəkatı tarixində dərin iz qoydu. Cəmi 23 ay yaşamasına baxmayaraq Azərbaycan Xalq Cümhuriyyəti sübut etdi ki, Azərbaycan xalqı müstəqil yaşamağa, öz dövlətçilik ənənələrini bərpa etməyə qadirdir.

Cümhuriyyətin adının özünə qaytarılması Ümummilli Liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Azərbaycan Xalq Cümhuriyyətinin tariximizdəki yerinə və roluna xüsusi qiymət verən Ulu Öndərimiz deyirdi: "Biz ilk Demokratik Cümhuriyyətin yaranması gününü əziz tutaraq, onu Azərbaycanın dövlət müstəqilliyi günü – Respublika Günü elan etmişik və bu, bizim milli bayramımızdır. Bu gün – bu bayram günü biz Azərbaycanda ilk Demokratik Respublikanın qurulmasında və fəaliyyət göstərdiyi xidmətlərə görə M.Ə.Rəsulzadəyə, Ə.Topçubaşova, F.Xoyskiyə, onların silahdaşlarına bir daha öz minnətdarlığımızı, təşəkkürümüzü bildiririk. Onların gördüyü işlər Azərbaycan xalqının bu günü üçün çox böyük əhəmiyyət kəsb edir. Onların fəaliyyəti bizim üçün həmişə əziz olacaqdır. Onların xatirəsi bizim qəlbimizdə daim yaşayacaqdır".

# YÜKSƏK DÖYÜŞ HAZIRLIĞI VƏ HƏRBİ İNTİZAMA NAİL OLUNMASI VACİB MƏSƏLƏLƏRDƏNDİR

**Məlumdur ki, son illərdə Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının respublikamızın müxtəlif bölgələrində müasir standartlara cavab verən yeni hərbi şəhərcikləri yaradılıb. Bunlardan biri də 17071 saylı hərbi hissədir.**



**Hərbi hissə komandiri polkovnik Elçin Məmmədov diqqətə çatdırdı ki, yeni yaradılan hərbi hissələrdən biri olaraq burada dislokasiya yerinin xüsusiyyətlərinin dərindən öyrənilməsi, yerli şəraitdə xidməti fəaliyyətin təşkilindən irəli gələn məsələlərin tənzimlənməsi, icra və hüquq-mühafizə orqanları ilə əlaqələrin qurulması istiqamətində tədbirlər diqqət mərkəzində saxlanılmaqdadır. O söylədi ki, Daxili İşlər Nazirliyi və Daxili Qoşunların rəhbərliyi tərəfindən göstərilən diqqət və qayğı, eyni zamanda tələbkarlığı hər birimizi vəzifələrimizin icrasına məsuliyyətlə yanaşmağa sövq edir. Hərbi hissədə döyüş hazırlığının qorunub saxlanılması, şəxsi heyətdə yüksək döyüş ruhunun və hərbi intizamın formalaşdırılması, maddi-tədris bazasının möhkəmləndirilməsi ən vacib məsələlərdəndir.**



**Hərbi hissənin xüsusi təyinatlıları yüksəki döyüş hazırlığı ilə fərqlənən bölmələrdəndir.**

### HƏDƏFİMİZ BÜTÜN XÜSUSİ TƏYİNATLILAR ARASINDA BİRİNCİLİYİ QAZANMAQDIR

Silahlı cinayətkarların axtarılması, tutulması və zərərsizləşdirilməsi, istər ictimai təhlükəsizliyin pozulması, istərsə də təbii fəlakətlər zamanı qarşıya qoyulmuş tapşırıqların müvəffəqiyyətlə yerinə yetirilməsinə daim hazır olmaq hərbi hissənin **"CANAVAR"** şərti adı verilmiş xüsusi təyinatlıların əsas vəzifələridir. Bölmənin şəxsi heyəti hər zaman xidmətdə sayıqlıq və əzmkarlıq nümayiş etdirərək qoyulan tapşırıqların öhdəsindən layiqincə gəlir.

İlin istənilən fəslində müxtəlif relyefə məxsus ərazilərdə çevik fəaliyyət göstərmək qabiliyyətinə malik olan bölmənin təlim proqramları hissənin digər bölmələrinin müvafiq tədris proqramlarından fərqlənir. Hərbi qulluqçudan kifayət qədər fiziki güc və möhkəm iradəyə malik olmağı tələb edən bu təlim proqramlarında nəzərdə tutulmuş məşğələlərə maraqla yanaşan xüsusi təyinatlılar praktiki fəaliyyət zamanı yüksək peşəkarlıq nümayiş etdirirlər. Qeyd edim ki, bölmə ötən ilin yekun yoxlamasını müvəffəqiyyətlə başa vurub, hərbi hissənin bölmələri arasında birinci yerə layiq görülüb.

Dəstə komandiri kapitan Anar Mahmudov bildirdi ki, hərbi hissədə xüsusi təyinatlı bölmənin fəaliyyəti digər hərbi hissələrin bölmələrindən öz spesifikliyi ilə fərqlənir. Şəxsi heyətin döyüş təlimi Daxili İşlər nazirinin müavini-Daxili Qoşunların komandanının müvafiq direktivinin tələblərinə əsasən təşkil edilir. Əsas diqqət atəş və fiziki hazırlıqları ilə yanaşı, xüsusi-taktiki hazırlıq, hərbi topoqrafiya, həmlə-desant hazırlığı, tək əsgərin döyüş təlimi, hərbi-tibbi hazırlıq, hərbi mühəndis hazırlığı və mütəxəssislərlə ixtisas hazırlığı üzrə məşğələlərə yetirilir. Hərbi qulluqçuların mənəvi-psixoloji tərbiyəsi, dünyagörüşlərinin düzgün formalaşdırılması da daim diqqətdə saxlanılır.

Dəstə komandiri xüsusi təyinatlıların döyüş tapşırığını yerinə yetirməyə hər zaman hazır olduğunu bildirdi: "Əsas etibarilə çətin iqlim şəraitində təlimlərin təşkil olunub keçirilməsinə nəzarət edilir. Döyüş təlimi müvafiq plana əsasən təşkil olunur və keçirilir. Bu zaman əsas diqqət bölmənin üzərinə düşən vəzifələrin və tapşırıqların əhəmiyyətinin dərk edilməsinə yönəlir. Şəxsi heyətin təhkim olunmuş silaha mükəmməl yiyələnməsi, əlbəyaxa döyüş fəndlərinin öyrənilməsi, müxtəlif şəraitlərdə xidməti-döyüş tapşırıqlarının yerinə yetirilməsi zamanı döyüş və digər texnikanın bacarıqla tətbiq edilməsi, yüksək nizam-intizamın və sayıqlığın təkmilləşdirilməsi, fiziki və psixoloji gərginliyə müvəffəqiyyətlə tab gətirilməsi, eləcə də ekstremal şəraitlərdə dayanıqlığın, mərdliyin və şücaətin nümayiş etdirilməsinə önəm verilir".

Onun sözlərinə görə, məşğələlər zamanı hər bir hərbi qulluqçunun fərdi hazırlığının artırılması vacibdir. Bu baxımdan, şəxsi heyətin real şəraitə uyğun operativ şəkildə qərar qəbul etmək bacarığı qiymətləndirilir: "Xüsusi təyinatlı bölmənin tərkibində olan döyüş texnikasından bacarıqla və peşəkarcasına istifadə edə bilmələri üçün müxtəlif ərazi relyefində və hava şəraitində məşğələlər keçirilir. Praktiki məşğələlər zamanı hərbi qulluqçulara xüsusi metod və vasitələr öyrədilir. Ayda bir dəfə olmaqla iki-üç gün ərzində qəflətən qarşıya çıxa biləcək tapşırıqların yerinə yetirilməsinə, xüsusən praktiki vərdişlərin təkmilləşdirilməsinə yönəlik xüsusi-taktiki təlim həyata keçirilir. Cinayətkar dəstələrin zərərsizləşdirilməsi və tərk-silah edilməsi üzrə praktiki fəaliyyətə üstünlük verilir. Təlim və məşğələlərin vaxtında



müasir metod və üsullarla keçirilməsi hərbi qulluqçuların döyüş qabiliyyətinin artırılmasına xidmət edir".

Kapitan A.Mahmudov onu da vurğuladı ki, şəxsi heyətin yüksək döyüş hazırlığı ilə yanaşı, hərbi intizamının da qorunub saxlanılması, sayıqlığın aşılanması, fiziki və psixoloji gərginliyə müvəffəqiyyətlə tab gətirilməsi məqsədilə də müvafiq məşğələlər keçirilir.

Yaradılmış bütün bu şəraitdən düzgün və səmərəli istifadə edərək



keçirilən məşğələ və təlimlərə diqqət yetirilməsi məhz döyüş hazırlığının artırılmasına xidmət edir. Yüksək döyüş hazırlığına, eləcə də xidmətin nümunəvi təşkil olunub aparılmasına nail olmanın əsasında isə şəxsi heyətin hərbi intizamı və düzgün istiqamətə köklənmiş mənəvi-psixoloji durumu dayanır.

Kapitan A.Mahmudov şəxsi heyət arasında yüksək döyüş hazırlığı və intizam nümayiş etdirən hərbi qulluqçulardan baş çavuş Elvin Ağayev və əsgər Elvin Məmmədovun adlarını çəkdi.

### BİRİNCİLİYİ QAZANAN BÖLMƏ

Hərbi hissənin yüksək döyüş hazırlığı və nümunəvi xidmətilə fərqlənən bölmələrindən biri də kapitan Emin Məmmədovun komandiri olduğu post-patrul xidməti bölməsidir.

Bölmə komandiri şəxsi heyətin müəyyən edilmiş vəzifələri vaxtında və keyfiyyətlə icra etməsi üçün əlindən gələni əsirgəmir.

Kapitan E.Məmmədov 1988-ci il aprelin 12-də Ermənistan Respublikasının Vardenis rayonunun Şişqaya kəndində anadan olub. 2005-ci ildə Göygöl rayonunda yerləşən 3 saylı tam orta məktəbdə təhsilini tamamlayıb. 2006-cı ilin aprel ayından Daxili Qoşunların sıralarındadır. Müddətli həqiqi hərbi xidmətini Daxili Qoşunların 67987 saylı hərbi hissəsində keçib. 2007-ci ilin oktyabr ayından müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi xidmətini 17072 saylı hərbi hissənin xüsusi təyinatlı bölməsində davam etdirib. 2010-2012-ci illərdə Daxili Qoşunların Orta İxtisas Hərbi Məktəbində (hazırda Daxili Qoşunların Ali Hərbi Məktəbi - X.H.) təhsil alıb. 2012-ci ilin iyul ayında ona "leytenant" hərbi rütbəsi verilib. 17074 və 67987 saylı hərbi hissələrdə müxtəlif vəzifələrdə xidmət edib. 2013-2014-cü illərdə Türkiyə Respublikasında zabit təməl təkmilləşdirmə kursunda iştirak edib. 2019-cu ilin noyabr ayından xüsusi vasitələrin tətbiqi bölməsinin, 2020-ci ilin mart ayının 12-dən isə post-patrul bölməsinin komandiridir.

Bölmənin əsas fəaliyyətinin regionda ictimai asayişin qorunub saxlanılmasından ibarət olduğunu bildirən kapitan E.Məmmədov bunun üçün mütəmadi olaraq nəzəri və praktiki məşğələlərin keçirildiyini söylədi. O, post-patrul bölməsinin ümumi fəaliyyətini təhlil edərək, tabeliyindəki hərbi qulluqçuların verilmiş tapşırıqların icrasına hər zaman hazır olduqlarını dedi.

Bölmə komandiri bölmədə yüksək döyüş hazırlığının, nizam-intizamın əldə olunmasının vacibliyini qeyd edərək, praktiki və nəzəri məşğələlərdə mövzuların keyfiyyətlə keçirilməsinin və hər bir hərbi qulluqçu tərəfindən dərindən mənimsənilməsinin qabaqcıl təcrübənin əldə olunmasına təkan verdiyini söylədi. Nümunəvi xidmətilə fərqlənən, öz işinə məsuliyyətlə yanaşan hərbi qulluqçulardan çavuş Əli Yaznəliyevin və əsgər Rövşən Əliyevin adlarını qeyd etməyi unutmadı.

### HƏVALƏ EDİLMİŞ OBYEKTLƏRİN ETİBARLI MÜHAFİZƏ VƏ MÜDAFİƏSİNƏ NAİL OLMAQ BAŞLICA MƏQSƏDİMİZDİR

Başlıca vəzifəsi Döyüş Bayrağının və hərbi şəhərciyin etibarlı mühafizəsi və müdafiəsini təşkil etmək olan komendant bölüyündə xidmət edən hərbi qulluqçular tərəfindən qarşıya qoyulmuş tapşırıqların uğurla yerinə yetirilməsi, xidmətin düzgün təşkil edilməsi olduqca vacibdir. Etibarlı mühafizənin təşkil edilməsi isə qarovula cəlb olunan şəxsi heyətin ayıq-sayıqlığından və xidmətin nümunəvi aparılmasına birbaşa təsir edən möhkəm hərbi intizamın olmasından asılıdır. Bu baxımdan bölükdə xidmət edən şəxsi heyət bilik səviyyəsi və dünyagörüşü nəzərə alınmaqla, yüksək döyüş hazırlığına, verilən tapşırıqları dəqiq və cəld yerinə yetirmək qabiliyyətinə malik, nizam-intizamlı, nümunəvi müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları arasından seçilir.

Bölük komandiri kapitan Sərxan Qafarov bildirdi ki, xidmət Qarnizon və Qarovul Xidmətləri Nizamnaməsinin tələblərinə əsasən təşkil edilir. Komandir kimi bölüyün döyüş hazırlığının yüksəldilməsi, nizam-intizamın möhkəmləndirilməsi üçün daim çalışan zabit, tələbkarlığı ilə yanaşı, şəxsi heyətdən diqqət və qayğısını da əsirgəmir. 2015-ci ilin yanvar ayından bu vəzifədədir. Hərbi hissə komandanlığı tərəfindən müsbət xarakterizə olunur.

Kapitan Sərxan Qafarov söylədi ki, xidmətə cəlb edilməzdən öncə özü və onun müavinləri tərəfindən şəxsi heyətə təlimat keçirilir, hərbi nizamnamələrin müvafiq maddələri onlara çatdırılır. Ümumiyyətlə, xidmətə cəlb edilməzdən bir gün əvvəl hərbi qulluqçularla fərdi qaydada söhbətlər aparılır, onların mənəvi-psixoloji vəziyyətləri öyrənilir, sağlamlıqları tibb xidmətinin həkimləri tərəfindən yoxlanılır və ciddi nəzarətdə saxlanılır. O, aparılan söhbətlərin olduqca əhəmiyyətli olduğunu qeyd edərək, problemi olan hərbi qulluqçuların aşkarlanaraq dərhal





xidmətdən kənarlaşdırıldıqlarını da vurğuladı.

Söhbət zamanı komendant bölüyündə xidmətin çətin, lakin şərəfli olduğunu diqqətə çatdıran bölük komandiri döyüş xidmətinə seçilən hərbi qulluqçuların döyüş və mənəvi-psixoloji hazırlıqlarının nəzərə alındığını bildirdi. Məlumdur ki, məsuliyyətli, eyni zamanda mühüm vəzifəni yerinə yetirmək üçün bölükdə xidmət edən hər bir hərbi qulluqçunun fiziki baxımdan sağlam, nizam-intizamının qənaətbəxş və atəş hazırlığının yüksək səviyyədə olması vacib amillərdir. Bu gün xidmətə cəlb olunan şəxsi heyətdə sadalanan keyfiyyətlərin olduğunu deyən





kapitan S.Qafarov hərbi qulluqçularla keçirilən məşğələlərin əhəmiyyətini önə çəkdi və onların hərbi bilik və bacarıqlarının artırılmasına təkan verdiyini dedi. Onun fikrincə, təlim-tərbiyəsi düzgün təşkil edilən, eləcə də vətənpərvərlik əqidəsinə malik olan hərbi qulluqçu əzmkar döyüşçüdür: "Məşğələ cədvəlinə uyğun olaraq, hərbi qulluqçularla atəş hazırlığı, ixtisas hazırlığı, fiziki hazırlıq, ictimai-siyasi hazırlıq və Daxili Qoşunların taktikası üzrə məşğələlər keçirilir. Mütəmadi olaraq şəxsi heyətlə aparılan işin nəticəsidir ki, bu gün komendant bölüyü hərbi hissənin seçilən bölmələri arasındadır".

Kapitan S.Qafarov onu da dedi ki, şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığının yüksəldilməsi, hərbi qulluqçular arasında yoldaşlıq münasibətlərinin qorunub saxlanılması məqsədilə tərbiyə işi tədbirləri keyfiyyətlə həyata keçirilir: "Bölükdə mövcud olan hərbi intizam və yüksək döyüş hazırlığını saxlamaqla bərabər, hissə komandanlığının etimadını hər zaman doğrultmaq əzmindəyik. Bizə həvalə edilmiş obyektlərin etibarlı mühafizə və müdafiəsinə nail olmaq başlıca məqsədimizdir. Şəxsi heyətlə keçirilən bütün məşğələlərin və aparılan tərbiyə işinin əsasını da məhz bu prinsip təşkil edir".

Bölüyün hərbi qulluqçularının asudə vaxtlarının səmərəli təşkili məsələsi də olduqca önəmlidir. Bunun üçün lazımi şərait də var. Belə ki, müxtəlif növ ədəbiyyatların mütaliə olunması, stolüstü oyunların oynanılması diqqətdən qaçmır.

Bölük komandiri komendant bölüyünün qabaqcıl hərbi qulluqçularından baş əsgər Fərid Əliyevin, əsgər Məhəmməd Hacıyevin xidmətlərini yüksək qiymətləndirdi, onların digər yoldaşlarına nümunə olduqlarını qeyd etdi.

Əminliklə demək olar ki, hərbi hissənin komendant bölüyünün şəxsi heyəti nümunəvi xidməti, sayıqlığı ilə seçilir və qəflətən qarşıya çıxan tapşırıqların dəqiqliklə yerinə yetirilməsinə hər zaman hazırdır.

**baş leytenant**
**Xədicə Hacızadə**

3 - 2_Layout 1 30.05.2020 10:59 Page 1



# ŞƏXSİ HEYƏTİN DÜZGÜN QİDALANMASI DİQQƏT MƏRKƏZİNDƏDİR

**Hərbi qulluqçuların sağlamlığının qorunması və səhhətinin möhkəmləndirilməsi sağlam və keyfiyyətli qidalanmadan asılıdır. Bu baxımdan Daxili Qoşunların digər hərbi hissələrində olduğu kimi, 17071 saylı hərbi hissədə də şəxsi heyətin yüksək kalorili, keyfiyyətli yeməklərlə qidalanması hərbi hissə komandanlığının daim nəzarətindədir.**



Hərbi hissədə ərzaq xidmətinin rəisi kapitan Ruslan Əkbərov qeyd edir ki, şəxsi heyətin qidalanması




müvafiq rəhbəredici sənədlərin tələblərinə əsasən təşkil edilir. Onun sözlərinə görə, xörəklərin keyfiyyətli hazırlanması Daxili Qoşunların və hərbi hissə komandanlığının qarşıya qoyduğu ən vacib tələblərdəndir. Bu baxımdan hazırlanan xörəklərin keyfiyyətinin yüksək olması, sanitar-gigiyenik qaydalara ciddi riayət edilməsi üçün lazımi bütün tədbirlər görülür. Şəxsi heyətin qidalanması gündəlik olaraq üç dəfə həyata keçirilir və bu zaman kalorinin düzgün bölüşdürülməsinə xüsusi diqqət yetirilir. Həmçinin, yeməkxanada bütün sanitar qaydalara ciddi riayət olunur. Qidalanmadan sonra bütün qabların iki faizli məhlulla yuyulması təmin olunur. Eləcə də qida şəxsi heyətə təqdim olunmamışdan əvvəl onun keyfiyyəti növbətçi-həkim tərəfindən yoxlanılır. Yeməkxanaya daxil olarkən hərbi qulluqçuların hər birinin temperaturu ölçülür və burada sosial məsafənin qorunub saxlanılmasına önəm verilir. Belə ki, masa arxasında hərbi qulluqçular iki nəfər olmaqla əyləşdirilirlər.

Xidmət rəisi şəxsi heyətin qidalanması və gündəlik qida rasionu barədə də məlumat verməyi unutmadı. Bildirdi ki, hərbi qulluqçuların qidalanmasında əsasən milli təamlara üstünlük verilir. Həftə ərzində hərbi qulluqçulara birinci xörək düyü şorbası, noxud əzməsi, mərci şorbası, küftə, bozbaş, borş, ikinci xörək olaraq isə makaron süzməsi, lobyalı və ya mərcili düyü plovu ət qovurması ilə, qarabaşaq, dolma, kotlet kimi yeməklər verilir. Gündəlik olaraq mövsümi salatlar və meyvə şirələri də qida rasionuna daxildir. Xüsusilə qış mövsümündə kəskin respirator xəstəliklərin yayılmasının qarşısını almaq məqsədilə sentyabr ayından başlayaraq şəxsi heyətin qida rasionuna soğan, sarımsaq kimi faydalı tərəvəzlər əlavə olunur. O, şəxsi heyətin qidalanmasının həftəlik bölgü cədvəlinə əsasən aparıldığını bildirdi. Bunun üçün yeməkxanada məsul vəzifəli şəxslər tərəfindən qidalanma rejimi və ərzağın bölüşdürülməsi tərtibatı işlənib hazırlanır.

Kapitan R.Əkbərov görülən işlərdə yeməkxana rəisi baş çavuş Adgözəl İslamovun və aşpaz-təlimatçı çavuş Camal Ağaməmmədzadənin əməyini xüsusilə vurğuladı. Onların qarşıya qoyulan vəzifələrin öhdəsindən layiqincə gəldiklərini, qidaların tələb olunan keyfiyyətdə hazırlanması, gigiyena qaydalarına ciddi əməl olunması üçün öz əməklərini əsirgəmədiklərini diqqətə çatdırdı.

Əlavə olaraq, qidaların tələb olunan səviyyədə keyfiyyətlə hazırlanmasında kurs keçmiş ixtisaslı əsgər aşpazlar Mahir Talıbovun, Rəfael Əhmədzadənin, mülki işçi - aşpazlardan Laləzar Zöhrabovanın, Aqibə Adgözəlovanın və Vüsalə Qəribovanın fəaliyyətini də müsbət xarakterizə etdi.

**baş leytenant**
**Xədicə Hacızadə**

# İşçilər verilmiş tapşırıqların icrasına məsuliyyətlə yanaşırlar

Daxili Qoşunların hərbi hissələrində, o cümlədən, hərbi şəhərciklərdə yaradılmış səliqə-sahmanın, göz oxşayan yaşıllıqların qorunub saxlanılması, şəxsi heyət arasında sanitar-gigiyenik vəziyyət və bu qaydalara ciddi riayət olunması hissə komandanlıqları qarşısında qoyulan əsas tələblərdən biridir. Sadaladığımız bu xüsusiyyətlər qoşunların 25033 saylı hərbi hissəsində də özünü büruzə verir. Abadlıq-quruculuq işlərinin daha da təkmilləşdirilməsi istiqamətində aidiyyəti məsul cavabdeh şəxslər vəzifə borclarına məsuliyyətlə yanaşırlar.



Qarşıya qoyulmuş bu və ya digər tələblərin yerinə yetirilməsində, döyüş hazırlığının yüksək səviyyədə saxlanılmasında təkcə hərbi qulluqçuların deyil, mülki işçilərin də əməyindən geniş istifadə olunur. Əsgər yeməkxanasında xörəklərin hazırlanması, cama-şırxanada şəxsi heyətin həftə ərzində istifadə etdiyi əmlakların yuyulması və s. işlər məhz onlar tərəfindən həyata keçirilir. Yəni əvvəllər bu işlərə müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları cəlb edilirdisə, artıq əsgər bütün bilik və bacarığını, gücünü döyüş hazırlığının yüksəldilməsi məqsədilə təlim və məşğələlərdə peşə vərdişlərinin artırılmasına sərf edir.

Bu baxımdan hərbi hissənin camaşırxanasında çalışan işçilərin fəaliyyəti təqdirəlayiqdir. Qeyd etmək lazımdır ki, camaşırxana bütün növ əmlakların yuyulması, qurudulması, o cümlədən, çeşidlənməsi üçün lazım olan müasir texniki avadanlıqlarla təchiz olunub.

Funksional vəzifələrinin icrası zamanı düzgün qərar verməyi bacaran təminat bölüyünün təminat taqımında hamam-camaşırxana kombinatının rəisi baş çavuş Peyman Əlizadə tabeliyində olan işçi xanımların fəaliyyətindən söz açdı. Camaşırxanada olan avadanlıqların saz olmasına, texniki vasitələrdən istifadə zamanı təhlükəsizlik tədbirlərinə və sanitar-gigiyena qaydalarına riayət edilməsinə cavabdehlik daşıyan baş çavuş P.Əlizadə tabeliyində olan işçilərin işgüzarlıq və mənəvi keyfiyyətlərini sadaladı. Bildirdi ki, camaşır-işçilər Aygün Mehdiyeva, Mahnur Ağayeva, Nəzmiyə Canıyeva və Səbuhi Rəhmanova artıq uzun zamandır bu hərbi hissədə əsgərlərin qayğısına qalırlar. Öz işlərini sevərək görən xanımlar hər bir əsgərə ana qayğısıyla yanaşır, onlara öz doğma övladları kimi baxırlar. Çünki şüurlu surətdə dərk edirlər ki, güclü əsgər Vətən torpağının bölünməzliyi deməkdir.



Həftədə 1 dəfə olaraq hamam tədbirlərindən sonra 1-ci, 2-ci, 3-cü günlər əsgərlərin çirkli əmlakları yuyulur. Hər bir əmlak ütülənib qurulduqdan sonra çeşidlənərək, aidiyyəti üzrə bölmələrə təhvil verilir. Əmlaklar istifadə təyinatına və rənginə görə ayrıca paltaryuyan qurğularda yuyulur ki, bu da sanitar-gigiyenik qaydaların gözlənilməsi deməkdir. Gigiyenik qaydalara ciddi əməl olunması həm də hissə komandanlığının nəzarətdə saxladığı və işçilərin qarşısında qoyduğu ən mühüm tələbdir. Yeri gəlmişkən, qeyd edək ki, hər il yay mövsümü ilə əlaqədar olaraq, hərbi hissə komandirinin əmrinə əsasən, əsgərlərin hamam tədbirləri həftədə iki dəfə həyata keçirilir.

Mülki işçi olmalarına baxmayaraq, hərbi qulluqçulara xas keyfiyyətləri özlərində hiss etdiklərini deyən camaşır-işçilər bundan sonra da üzərilərinə düşən vəzifələri, habelə verilmiş tapşırıqları müvafiq tələblər əsasında yerinə yetirmək üçün səylə çalışacaqlarını bildirdilər.

**baş leytenant**
**Nigar Ağayeva**

*Şəhidlərimiz*

# “ANA, MƏNİ ŞƏHİDLƏR XİYABANINDA DƏFN EDƏRSİNİZ”...

**Hər bir müharibənin ən böyük ağrıacısı insan itkisidir. Müxtəlif müharibələr haqqında indiyədək aparılmış tədqiqatlarda canlı qüvvə tələfatı əvəzsiz itki olaraq xarakterizə edilib. Müharibə nəticəsində dağıdılmış şəhər və kəndləri, sıradan çıxarılmış texnikanı, yararsız hala düşmüş silahları, ümumilikdə, vurulmuş maddi ziyanı sonradan bərpa etmək mümkündür. Ancaq döyüşdə hərbi qulluqçunun ölümü heç bir maddi itkilə müqayisə oluna bilməz. Belə ki, silahdaşını itirən hissə və bölmənin şəxsi heyəti, habelə öz doğmasını torpağa tapşıran ailə üçün bu, müharibənin ən dəhşətli faciəsidir.**

**Azərbaycan xalqı öz torpaqlarının toxunulmazlığı və bütövlüyü uğrunda erməni işğalçılarına qarşı müharibədə say-seçmə, qeyrətli və mərd oğullarını qurban verib. Belə oğulları yad etmək və tanıtmaq torpaqlarımızın işğal altında olduğu, yüz minlərlə məcburi köçkünün doğma yurd həsrətilə yaşadığı bir dövrdə döyüş ruhunu aşılamaq baxımından xüsusilə aktualdır.**



Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının şəhid hərbi qulluqçularının siyahısında əsgər Hacıyev Akif Əmiraslan oğlunun da adı var. Daxili Qoşunların Arxivindən verilən 4 noyabr 2019-cu il tarixli arayışdakı məlumata əsasən, onun adı bu siyahıda 202-ci sıra nömrəsi ilə qeydə alınıb.

O, 1973-cü il iyulun 17-də Sumqayıt şəhərində anadan olub. Əslən Cəlilabad rayonundan olan, uzun illər Sumqayıtda yaşayaraq ayrı-ayrı müəssisələrdə işləmiş Əmiraslan Hacıyev və Nəzakət Hacıyevanın qurduğu ailədə 3 oğul, 2 qız övladı dünyaya gəlib. Ailənin birinci övladı olan Akif valideynlərinin verdikləri tərbiyə sayəsində ləyaqətli gənc kimi formalaşıb. Həmişə valideynlərinə, qardaş və bacılarına mehribancasına yanaşıb, ailə dəyərlərinə ehtiram göstərib, yoldaşlarının, qonşuların dərin hörmətini qazanıb. Onların bir çətinliyi olanda öz köməyini əsirgəməyib.

Akif Sumqayıtdakı 31 saylı orta məktəbdə 8-ci sinfədək təhsil alıb. Sonra təhsilini Sumqayıtda yerləşən 43 saylı texniki-peşə məktəbində davam etdirib. Texniki-peşə məktəbini bitirdikdən sonra hərbi xidmətə çağırılanadək şəhərdəki “Neft-kimya” zavodunun Təmir-tikinti trestində işləyib. Əmək kollektivində onun zəhmətsevərlik və işgüzarlıq keyfiyyətləri özünü büruzə verib. Ən əsası isə o, böyük övlad olaraq ailənin sosial qayğılarına laqeyd qalmayıb, ata-anasına dayaq olmağa çalışıb.

1991-ci ilin dekabr ayında Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunları formalaşmağa başladıqda onun sıralarına müddətli həqiqi hərbi xidmətə qəbul edilən ilk əsgərlərin arasında Akif də vardı. O, Sumqayıt Şəhər Hərbi Komissarlığı (hazırda Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Sumqayıt Şəhər İdarəsi - Y.A.) tərəfindən hərbi xidmətə çağırılmışdı. Akif o vaxt Daxili Qoşunların tərkibində olmuş 6500 saylı hərbi hissədə (1993-cü ilin yanvar ayından Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin tabeliyindədir - Y.A.) xidmət keçib. Burada hərbi andı qəbul edib. Döyüş təlimində bacarıqlı əsgər kimi fərqlənib. Hərbi hissənin xüsusi təyinatından irəli gələn vəzifələrlə bağlı qarşısına qoyulan tapşırıqları ayıq-sayıqlıqla yerinə yetirib.

Həmin dövrdə Ermənistanın hərbi təcavüzü səbəbindən düşmən ölkə ilə sərhəddə yerləşən rayonlarımızda, eləcə də Dağlıq Qarabağ bölgəsində döyüşlər gedir və getdikcə daha da şiddətlənirdi. Daxili Qoşunların şəxsi heyəti 1992-ci ilin mart ayının 12-dən etibarən ön cəbhədə düşmənlə vuruşur, torpaqlarımızın müdafiəsində dayanırdı. Ayrı-ayrı hərbi hissələrimizdən müntəzəm olaraq döyüş zonasına hərbi qulluqçular göndərilirdi. 6500 saylı hərbi hissə də istisna deyildi. Hərbi hissədə bir neçə ay xidmət etdikdən sonra Akif ön cəbhəyə gedən heyətlərdən birinə könüllü olaraq daxil edilib. Beləliklə, onun ömür yolunda çətin sınaqlarla dolu bir mərhələ başlayıb. Əvvəlcə Ağdam-Ağdərə bölgəsində, sonra isə Füzuli rayonu ərazisində erməni işğalçılarına qarşı döyüşlərdə qətiyyətlə iştirak edib. Onun tərkibində döyüş yolu keçdiyi 67987 və 99713 saylı hərbi hissələrin o vaxtkı şəxsi heyəti müharibənin sərt üzünü görüb, əzab-əziyyətinə dözüb, itkilər verib.

Vətəni düşməndən müdafiə edən döyüşçü olaraq Akif müharibə sarsıntıları yaşayıb, öz cəsurluğu ilə seçilib.

1994-cü ilin yanvar ayında Daxili Qoşunların şəxsi heyətinin və digər hərbi qüvvələrin iştirakı ilə keçirilmiş uğurlu Horadiz əməliyyatı nəticəsində Füzuli rayonunun onlarla yaşayış məntəqəsinin, o cümlədən, Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin işğaldan azad olunması ön cəbhədə əsaslı dönüş yaradıb. Düşmən həmin vaxt nəzarəti itirdiyi əraziləri yenidən ələ keçirmək üçün bir neçə dəfə əks hücuma keçsə də, hərbi qulluqçularımız tərəfindən geri otuzdurulub.

1994-cü ilin mart ayının 19-da Bakının “20 Yanvar” metrostansiyasında Ermənistanın təşkil etdiyi terror aktı xeyli sayda və-



təndaşımızın ölümü və yaralanması ilə nəticələnib. Ön cəbhəyə çatan bu xəbər hərbi qulluqçularımızın düşmənə nifrətini və qisas hissini daha da gücləndirib.

1994-cü ilin mart ayının 21-də Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi yaxınlığındakı ərazidə bir qrup hərbi qulluqçumuz döyüş tapşırığını yerinə yetirərkən düşmənin şiddətli atəşinə məruz qalıb və minalanmış sahədən keçərkən partlayışa uğrayıb. Həmin vaxt bəzi hərbi qulluqçularımız həlak olublar, Akif isə ağır yaralanaraq hərbi qospitala çatdırılıb. Döyüşçümüz Füzuli rayonundakı hərbi qospitaldan Bakıya göndərilib. Paytaxtda öncə mülki xəstəxanada, sonra hərbi qospitalda yerləşdirilib. Həkimlər 9 aya yaxın müddətdə onun həyatını xilas etmək üçün öz səylərini əsirgəməyiblər. Ancaq onurğasının ağır zədələnməsi bədənində sağalmaz fəsadlar törədib. 1994-cü il dekabrın 2-də Akif hərbi qospitalda vəfat edib. 28.10.1998-ci ildə tərtib olunmuş ölüm haqqında şəhadətnamədə də həmin tarix qeyd edilib.

Şəhidin anası oğlunun ölüm gününədək hərbi qospitalda onun yanında qalıb. Akif ümidlərinin onu tərk etdiyi günlərdən birində anasına son arzusunu bildirib: “Ana, məni Şəhidlər xiyabanında dəfn edərsiniz”. Ölümündən əvvəl hərbi qospitalda əlil arabasında, 2 hərbi qulluqçu ilə birgə sonuncu dəfə xatirə şəkli çəkdirib.

Əsgər A.Hacıyev 1994-cü il dekabrın 3-də Cəlilabad rayonunun Zubanlı kəndinin qəbiristanlığında dəfn olunub. Ailəsi şəhidi doğma yurdda torpağa tapşırmağı qərara alıb. Valideynləri o vaxtdan Sumqayıtdan kəndə köçüblər. Bu günədək ana ürəyi oğlunun son arzusu yerinə yetirilmədiyinə görə rahatlıq tapmır.

Rəsmi sənədlərdə Təzəkənd 1 saylı ümumi orta məktəbi adlandırılan təhsil ocağı (ailəsinin verdiyi məlumata görə, məktəb Zubanlı kəndinə aiddir - Y.A.) şəhidin adını daşıyır. Məktəbin həyətində xatirə lövhəsi yaradılıb. Sumqayıtda isə ailənin əvvəlki ünvanında (hazırda şəhidin qardaşı yaşayır - Y.A.) Akifin dostları və qonşularının birgə əməyilə “Şəhid bulağı” inşa olunub.

Nigar Həmidlinin müəllifi olduğu “Cəlilabad şəhidləri” kitabında şəhid haqqında məlumat verilib.

Mərhum hərbi qulluqçumuzun qardaşı Hafiz Hacıyev də erməni işğalçılarına qarşı döyüşlərdə iştirak edib. 1992-ci il dekabrın 29-da Qazax rayonu ərazisində düşmən gülləsindən yaralanıb. Müharibə əlilidir. Onun oğlu şəhid əmisinin adını daşıyır.

Hər bir şəhidin döyüş yolu gənclərimizə vətənpərvərlik örnəyidir. Məhz belə örnəklərdən ruhlanan Vətən əsgərləri 2016-cı ilin aprelində Lələtəpə yüksəkliyində üçrəngli bayrağımızı ucaltdılar.

**Allah şəhidlərimizə rəhmət eləsin!**

**Yalçın Abbasov**

# HƏRBİ RÜTBƏLƏR MƏNƏVİ DƏYƏR OLAN HƏRBİ ƏNƏNƏLƏRİ AŞILAYIR

Hərbi and içərək müxtəlif qoşun növlərində xidmət keçən, bununla da vətəndaşı olduğu dövlətin müdafiəsi və təhlükəsizliyi naminə mühüm missiyanı yerinə yetirən hərbçiləri hərbi rütbəsiz təsəvvür etmək mümkün deyil. Hərbi rütbə hərbi xidmətin vacib atributlarından biri sayılır. Aşağı və yuxarı dərəcəsindən asılı olmayaraq, hərbi rütbənin şərəfinin uca tutulması, ona ləyaqətlə yanaşılması hərbi qulluqçunun mənəvi borcudur.

Hərbi qulluqçuya və hərbi vəzifəliyə onun tutduğu vəzifədən, hərbi və ya xüsusi hazırlığından, hərbi xidmət müddətindən, ehtiyatda olma vəziyyətindən, qoşun növünə mənsubiyyətindən, xidmətlərindən asılı olaraq müvafiq hərbi rütbə verilir.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Daxili Xidmət Nizamnaməsinin 9-cu maddəsində müəyyən edilib ki, tutduğu vəzifələrinə və hərbi rütbələrinə görə hərbi qulluqçular biri o birinə münasibətdə rəis və yaxud tabe olandır. Nizamnamənin 12-ci maddəsində isə göstərilib ki, hərbi qulluqçular tutduqları vəzifəyə və rütbələrinə görə bir-birilə münasibətdə rəis və tabe olan deyillərsə, böyük və kiçik ola bilərlər. Böyüklük hərbi qulluqçuların hərbi rütbəsilə müəyyən edilir. Hərbi rütbəsi böyük olanların hərbi rütbəsi kiçik olanlara irad tutmaq, onlardan hərbi intizama, ictimai qayda-qanuna, geyim forması geyinmə, həmçinin, davranış və salamlaşma qaydalarına riayət etmələrini tələb etmək hüququna malik olmaları da nizamnamədə öz əksini tapıb.

Göründüyü kimi, hərbçi keyfiyyətlərinin formalaşması, xidməti fəaliyyətin təşkilində şüurlu nizam-intizamın aşılanması, komandir və rəislər tərəfindən peşəkarlığa söykənən idarəetmə prinsiplərinin tətbiq edilməsi, hərbi ənənələrin qorunub saxlanılması, əzmkarlığa həvəsləndirmə amilinin təlim-tərbiyə prosesində qüvvətləndirilməsi nöqteyi-nəzərdən hərbi rütbələrin xüsusi rolu və əhəmiyyəti var.

Dünya hərb tarixinə aid müxtəlif qaynaqlara nəzər saldıqda hərbi rütbələrin mənşəyi və məruz qaldığı dəyişikliklər barədə maraqlı məlumatlara rast gəlmək olar. Ümumilikdə, hərbi rütbələrin formalaşması çoxəsrlik dövrü əhatə edir. Belə ki, hərbi rütbələrə dair ilkin adlar Vavilon ordusu barədə tədqiqatlarda göstərilir.

V-VI əsrlərdə qədim Roma legionlarında zabit heyətinin özəyini senturionlar adlandırılan hərbçilər təşkil ediblər. Avropa ordularında ilk hərbi rütbələrin yaranması və sistem halında qərarlaşması XV-XVI əsrlərdə gerçəkləşib. Rus ordusunda isə hərbi rütbələr XVI əsrin ortalarında tətbiq olunmağa başlayıb.

Şərq ölkələrində ayrı-ayrı tarixi dövrləri əhatə etməklə həyata ke-çirilən davamlı ordu quruculuğu prosesi də hərbi vəzifə və rütbələr sisteminin inkişafına öz töhfələrini verib.



Azərbaycan Xalq Cümhuriyyətinin (1918-1920) ordusunda milli mənşəli sözlərlə ifadə olunanlarla yanaşı, əcnəbi dillərdən götürmə hərbi rütbələr də mövcud idi. Belə ki, kornet, podporuçik, poruçik, ştabs-rotmistr, rotmistr, podpolkovnik, yefreytor və sair hərbi rütbələrdən istifadə edilib.

Sovet İttifaqında 1935-ci il sentyabrın 22-də hərbi rütbələrin geniş tətbiqi qərara alınıb. 1940-cı il mayın 7-də isə SSRİ-də hərbi rütbələr əsaslı şəkildə yeniləşdirilib. Sonrakı mərhələlərdə isə bu sahədə müvafiq təkmilləşdirmə işləri aparılıb.

Hərbi xidmət sahəsində bugünədək mövcud olan hər bir hərbi rütbənin yaranmasını şərtləndirən amillər olub. Bir çox ölkədə hərbi rütbələrin müəyyən qismi eyni cür adlandırılır.

Ana dilimizdə işlənən "əsgər" sözü eyniadlı hərbi rütbəni bildirir. İtalyan dilində əsgər mənasında "solidus" sözü mənbə kimi götürülür. Məhz bu mənbədən ayrı-ayrı dillərə yayılıb və müəyyən dəyişikliklərə uğrayıb. Sözün öz dövrü üçün mənası xidmətinə görə maaş alan muzdlu deməkdir. Müasir anlamda isə müqavilə və ya çağırış əsasında xidmət edən hərbçi nəzərdə tutulur.

Dünya qoşun növlərində mövcud olan "serjant" hərbi rütbəsi dilimizə çavuş kimi tərcümə edilir. Ayrı-ayrı mənbələrdə göstərilib ki, əvvəllər zadəgan olmayan, nisbətən ağır silahlı süvari çavuş adlandırılıb. İlk dəfə XV əsrdə Fransa ordusunda yaranıb. Sonrakı əsrlərdə İngiltərədə çavuşlar polis və məhkəmə icraçısı funksiyalarını yerinə yetiriblər. XVI əsrin ortalarından isə çavuşlar kiçik komandir vəzifələrinə təyin olunublar.



Orta əsrlərdə "gizir" hərbi rütbəsində olanlar bölmələrin bayraqlarını daşımaq üçün təyin edilirdilər. Hərb meydanında gizirin hərəkətini seyr edən döyüşçülər lazımi hədəflərə istiqamətləndirilirdilər. Həmin vaxtdan uzun zaman keçdikcə, gizirlərə həvalə olunan vəzifələr yeni məzmun alıb və genişlənib, onların statusu möhkəmlənib.

"Leytenant" hərbi rütbəsi bəzi zabit rütbələrindən sonra yaranıb. XV əsrdə Fransada öncə donanma, tədricən isə quru qoşunlarında öz yerini tutub. Bu rütbə ilk dövrdən rəis köməkçisinə aid edilirdi, rəis olmadığı təqdirdə onu əvəzləyərək bölmədə nizam-intizam və maddi təminata cavabdeh funksiyasını daşıyırdı. Rus ordusunda isə "leytenant" bölük komandirinin əmrlərini yerinə yetirən "poruçik" zabit rütbəsinə uyğun gəlirdi.

"Kapitan" hərbi rütbəsi hələ feodal ordularında mövcud olub. Cəngavər süvariləri müşayiət edən piyada dəstəsinin başçısına "kapitan" deyilib. Onlar tabeliklərində olan bölmələri qismən müstəqil idarə ediblər. Latınca "kapitaneus" sözü hərbi rəis deməkdir. Muzdlu birləşmələrə də bəzən kapitanlar rəhbərlik ediblər. 1558-ci ildən etibarən ayrı-ayrı ölkələrin ordu quruculuğunun inkişafı nəticəsində "kapitan" rütbəlilər bölük komandiri vəzifələrinə irəli çəkiliblər.

"Mayor" sözü latın mənşəlidir, mənaca böyük, başda olan deməkdir. İlk dəfə 400 ildən çox əvvəl ispan ordusunda bu rütbə təsis olunub. Beynəlxalq miqyasda geniş yayılmış hərbi rütbədir.

"Polkovnik" hərbi rütbəsi bir sıra qaynaqlarda alay komandiri vəzifəsini yerinə yetirən mənasında göstərilib. İngilis və fransız dillərində "colonel", italyan dilində "colonello" kimi ifadə olunaraq, alayın səfərdə və ya hücumda olduğu düzülüşünün komandiri mənasını bildirib. "Polkovnik-leytenant" hərbi rütbəsi isə yarandığı vaxtda komandirin müavini olan hərbçilərə verilib.

"General" hərbi rütbəsinin mənşəyi barədə də maraqlı məqamlar var. XV əsrdən başlayaraq ordu qurumlarının inkişafı, qoşun növlərinin sayının artması ilə tabeliyində kapitanların rəhbərlik etdiyi bir neçə bölmə olan komandirlər (rəislər) "general-kapitan" adlandırılıblar. O dövrdə Avropada hərbi dairələrin komandanları da "general-kapitan" rütbəsini daşıyırdılar. Zaman keçdikcə, "general-kapitan" rütbəsi dəyişikliyə uğrayıb, "general-mayor", "general-leytenant", "general-polkovnik" və "ordu generalı" ali rütbələri yaranıb.

"Admiral" hərbi rütbəsi hərbi donanmada yaranıb, ali dərəcəlidir. Avropalılar bu adı XII əsrdə ərəblərdən götürüblər. Ərəbcədən tərcümə edəndə "dəniz sahibi" deməkdir. İlkin dövrlərdən hər hansı bir hərbi gəmi birliyinin komandiri bu rütbəni daşıyırdı.

Bir sıra ölkələrin silahlı qüvvələrinin hərbi rütbələr sistemində "generalissimus" (latın mənşəli sözdür, mənası ən başda olan və ya əsas qərar verən deməkdir) və "marşal" (bəzi mənbələrə görə, latın mənşəli sözdür, ilkin olaraq mehtər mənasında işlədilib) rütbələri ən ali zirvədə dayanıb. Bu hərbi rütbələr sərkərdələrə, böyük hərbi rəislərə, istisna hallarda dövlət xadimlərinə verilib. "Generalissimus" hərbi rütbəsi ilk dəfə 1569-cu ildə Fransada təqdim olunub. Müxtəlif dövrlərdə bu adla hərbi vəzifə və fəxri hərbi titul da təsis edilib. "Marşal" hərbi rütbəsi bir sıra ölkələrdə "feldmarşal" adlandırılıb. İlk dəfə Tevton ordusunda hərbi titul kimi verilib.

Hər bir ölkənin silahlı qüvvələrində hərbi rütbələrin daşınma qaydaları mövcuddur. Hərbi qulluqçuya mükafat qaydasında vaxtından əvvəl növbəti hərbi rütbə verilə bilər. Həmçinin, hərbi qulluqçunu hərbi rütbədən məhrumetmə və ya hərbi rütbəsini endirmə intizam cəzaları hərbi xidmətdə tətbiq olunur.

Hərbi qulluqçunun statusundan irəli gələrək poqonunda daşıdığı hərbi rütbə onun üçün qürur mənbəyi və üzərinə götürdüyü məsuliyyəti, dövlətin və xalqın ona göstərdiyi etimadı daim xatırladan, mənəvi dəyər kəsb edən elementdir.

**Yalçın Abbasov**

*Nümunəvi xidmət*

## VƏTƏN SEVGİSİ SÖZDƏ DEYİL, ƏMƏLDƏ TƏZAHÜR OLUNMALIDIR

Baş əsgər Sadiq Babayev 2001-ci il martın 29-da Lerik rayonunun Vov kəndində dünyaya gəlib. 2008-ci ildə Lerik rayonunun Vov kənd orta məktəbində təhsil almağa başlasa da, tam orta təhsilini Lənkəran rayon Bəlləbur kənd məktəbində başa vurub.



2019-cu ilin aprel ayında müddətli həqiqi hərbi xidmətə çağırılan Sadiq Daxili Qoşunların 99713 saylı hərbi hissəsində hərbi andı içdikdən sonra 2019-cu ilin may ayında xidmətini davam etdirmək üçün Daxili Qoşunların 67987 saylı hərbi hissəsinə göndərilib. Həmin tarixdən etibarən 67987 saylı hərbi hissənin komendant bölüyünün sıralarında əsgər kimi ləyaqətlə xidmət edir.

Baş əsgər S.Babayev xidmətə başladığı ilk günlərdən verilən tapşırıqların icrasına məsuliyyətlə yanaşaraq, bir çox müsbət keyfiyyətləri ilə yoldaşlarından fərqlənməyi bacarıb. Bölükdə qısa zaman ərzində qazandığı hörmətə, eləcə də göstərdiyi yüksək nizam-intizama görə manqa komandiri vəzifəsinə irəli çəkilib.

Komendant bölüyündə xidmətin çətin, lakin şərəfli olduğunu bildirən hərbi qulluqçumuz vəzifə borclarının icrasına məsuliyyətlə yanaşır. Hərbi xidmət borcunu vicdanla yerinə yetirir. Bölük komandirinin dediyinə görə, indiyədək xidməti ərzində bir dəfə də olsun nöqsana yol verməyib. Saatdar kimi xidmətə cəlb olunan zaman xüsusi sayıqlıq nümayiş etdirir. O, bacarıqlı hərbi qulluqçu olaraq, yeni qəbul edilən əsgərlərin xidmətə uyğunlaşmasında yaxından köməklik göstərir.

Hərbi qulluqçu gələcək həyatını hərbi xidmətlə bağlamaq istəyir. Əsgəri xidmətini başa vurduqdan sonra o, Daxili Qoşunlarda müddətdən artıq həqiqi hərbi xidmətə keçmək fikrindədir. Vətənə olan borcunu iftixar hissilə, həvəslə yerinə yetirən baş əsgər S.Babayev bu günü səbirsizliklə gözlədiyini nəzərimizə çatdırdı: "Fikrimcə, hər kəs Vətənini sevdiyini dilinə gətirə bilər. Amma bu sevgi sözdə deyil, əməldə təzahür olunmalıdır. Yəni, hər bir Vətən oğlu ancaq hərbi xidmət dövründə öz intizamı, xidmətə münasibətilə bunu bir daha sübuta yetirməlidir. Əminəm ki, bu gün xidmətdə qazandığımız hərbi bilik və təcrübə sabah bizə müqəddəs torpaqlarımızın müdafiəsi zamanı lazım olacaq".

**baş leytenant Nigar Ağayeva**

*Həkim məsləhəti*

## FİZİKİ HƏRƏKƏTLƏR YADDAŞI YAXŞILAŞDIRIR

Mütəmadi fiziki hərəkətlər sağlam həyat tərzinin əsas komponentidir, lakin onların üstünlükləri əzələlərin güclənməsindən və çəki itkisindən daha yüksəkdir.



**AZƏRTAC** "Medical Forum"a istinadla xəbər verir ki, Merilend Universitetinin alimləri gündə 30 dəqiqəlik hərəkətin yaddaşı yaxşılaşdırdığını müəyyənləşdiriblər.

Onların araşdırması Beynəlxalq Neyropsixoloji Cəmiyyətinin jurnalında dərc edilib. Məqsəd məşq və idrak funksiyaların arasındakı əlaqəni anlamaqdır.

Uzun məşqlərin idrak funksiyalarına tə-sirinə aydınlıq gətirmək üçün alimlər məşq seansından sonra semantik yaddaş tapşırığı zamanı beynin aktivləşməsini araşdırıblar. Onlar 26 iştirakçı (55 yaşdan 85 yaşa qədər) cəlb ediblər, nəzarət üçün funksional maqnit rezonans tomoqrafiyadan (MRT) istifadə olunub.

Sürətli hərəkətlər yaddaşın aktivləşməsinə səbəb olub. Alimlər iştirakçıların xüsusi düşərgəsində fiziki hərəkətlərdən sonra istirahət ilə müqayisədə daha böyük aktivləşmənin baş verdiyini müəyyən ediblər. Tədqiqatçılar düşünürlər ki, fiziki məşqlər neyrotransmitterlərə, sinir sisteminin böyüməsinə, ümumi beyin fəaliyyətində əsas rol oynayan qısamüddətli amillərə təsir edir. Bu təsir sinir aktivləşməsinin artmasına səbəb olur.

Müəlliflər izah edirlər: "Əzələ hərtərəfli fəaliyyətə uyğunlaşdığı kimi, xatirələri daha effektiv canlandırmaq, funksionallığı təmin etmək və adaptasiya olmaqla yanaşı, neyron sinir sisteminin xüsusi fəaliyyətini çevikləşdirə bilər".

## ŞİRNİYYATLAR YEMƏKDƏN ƏN AZI BİR SAAT SONRA QƏBUL EDİLMƏLİDİR

Həyatımızı şirniyyatsız təsəvvür etmək çətindir. Tərkibində karbohidratlar olan şirniyyat orqanizmdə xoşbəxtlik hormonu adlandırılan serotonin ifrazını təmin edir. Lakin bununla yanaşı, bir sıra fəsadlara da səbəb ola bilir.



**AZƏRTAC** xəbər verir ki, həkim-dietoloq Ləman Süleymanova deyib: "Həddindən artıq şirniyyat yemək mədəaltı vəzini daha çox işləməyə məcbur edir. Şəkər və qlükoza enerji ehtiyacını qarşılayan vasitələrdən biridir. Şəkərin verdiyi enerji həm beyin, həm də ümumiyyətlə, orqanizm üçün vacib məhsuldur, ancaq onun nə zaman və necə istifadə edilməsinə diqqət yetirilməlidir. Xüsusilə səhər yeməyi zamanı şirniyyat yeyilməsi düzgün deyil. Onu yeməkdən ən azı 1 saat sonra istifadə etmək lazımdır. Un məmulatlarının əvəzinə südlü şirniyyatlar və acı şokolad daha xeyirlidir. Onu meyvələrlə də əvəz etmək mümkündür. Qəbul edildikdən sonra qidaların parçalanması üçün 0,5, ya da 1 kilometrə qədər yolu piyada gəzmək, yaxud qaçmaq lazımdır, əks halda ürək, qan-damar sistemi xəstəlikləri ilə üzləşmək olar".

## HƏRBİ XƏBƏRLƏR -YENİLİKLƏR-

### Çex ordusu yerli şirkətdən 92 milyon dollar dəyərində silah alacaq

"Uraltransmash" ("Rostec" korporasiyasının "Uralvagonzavod"un törəmə şirkəti) şirkətinin ilk modernləşdirilmiş 2S7M "Malka" özüyeriyən artilleriya qurğusu Rusiya ordusuna təhvil verilib. Ordu.az "Sputnik" agentliyinə istinadən xəbər verir ki, bu barədə "Rostec" şirkətinin nümayəndəsi məlumat verib.

Bildirilir ki, artilleriya qurğusu bir sıra sı-



naqlardan keçirilib və daha sonra orduya tədarük edilib.

Qeyd edək ki, 2S7M "Malka" Sovet özüyeriyən artilleriya quruğusu olmuş 2S7 "Pion"un modernləşdirilmiş versiyasıdır.

### Çin ordusu yeni kiçik silahlı robotları təqdim edib

Çin ordusu pulemyotla təchiz edilən kiçik robotu təqdim edib. Ordu.az xarici KİV-ə istinadən xəbər verir ki, robot mürəkkəb əraziləri keçə, döyüş vəziyyətlərini dəqiq müşahidə edə və şiddətli atəş aça bilir.



## Allah rəhmət eləsin

Daxili Qoşunların Veteranlar şurası **ehtiyatda olan çavuş Məmməd Qədirovun** vəfatından kədərləndiyini bildirir və ailəsinə dərin hüznlə başsağlığı verir.

*TƏSİSÇİ:*
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: Anar Əhmədov

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000